بسم الله الرحمن الرحيم

14 məsumun (ə) həyatı

# İmam Həsən Əskəri (ə)




Kitabın adı: İmam Həsən Əskəri (ə)

Tərcümə edən: Seyyid Zahir Cavadov

Çap tarixi: 2018

Çap növbəsi: Birinci

Tiraj: 1000

Издательство «Свет»

Типография «Махаон», 2018

ISBN 5-18-130518-3



Adı: Həsən (ə)

Məşhur ləqəbi: Əskəri

Künyəsi: Əbu Məhəmməd

Atası: Əli (İmam Hadi)

Anası: Hədisə

Doğum tarixi: 232-ci hicri-qəməri ili

Doğulduğu yer: Mədinə

İmamət müddəti: 6 il



Ömrü: 28 il

Şəhid olduğu il: 260-cı hicri-qəməri, 8 rəbiül-əvvəl

Qatili: Mötəmid (onu zəhərləmişdir)

Dəfn yeri: Samirra (İraq)

## İmamın təvəllüdü

Hicrətin 232-ci ilində Mədinə şəhərində nurani bir uşaq dünyaya göz açdı. Bu imamət səmasının on birinci parlaq ulduzu Həsən Əskəri (ə) idi. Bütün ailə onun dünyaya gəlişindən sevindi və Allaha şükür etdilər. Bu körpənin atası onuncu imam həzrət Hadi (ə), anası isə Hədisə adlı təqvalı bir qadın olmuşdur. Bəzi tarixçilər onun adını Süsən qeyd etmişlər. O, çox təqvalı və İslam dünyagörüşünə malik bir qadın idi. Məqam və fəzilət baxımından barəsində təkcə bunu demək kifayətdir ki, imam Həsən Əskərinin (ə) şəhadətindən sonra belə böhranlı və həssas zamanda şiələrin pənah yeri sayılırdı.

## Uşaq vaxtı Allaha diqqəti

Bəhlul deyir ki, bir dəfə imam Həsən Əskərini (ə) uşaq narahat və ağladığı halda gördüm. Uşaqlar oynayır, o isə onlara qoşulmadan bir kənara çəkilib, əyləşmişdi. Elə fikirləşdim ki, oyuncağı olmadığı üçün ağlayır. Yaxınlaşıb, həzrətə dedim: Əgər oyuncağın yoxdursa, mən onu taparam.



Həzrət buyurdu: - Biz oyun üçün yaradılmamışıq.
- Bəs nə üçün yaranmışıq?
- Elm və ibadət üçün.
- Elm və ibadət üçün yaranmağımızı haradan bilirsən?
- Allah Quranda buyurur: "Yoxsa sizi əbəs yerə yaratdığımızı və hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?" Dedim:
- Xahiş edirəm, mənə bir nəsihət verin.

Onun nurlu siması bir az da parlayaraq gözəl və mənalı bir şeirlə mənə belə nəsihət verdi (məzmunu belədir):

*"Görürəm ki, dünya hamını tərk etməyə hazırlaşır. Addımlarını ataraq sürətlə hərəkət edir.*

*Nə dünya dirilər üçün əbədidir, nə də dirilər dünyada qalandır.*

*Ölüm və xoşagəlməz hadisələr dünyada hamıdan irəli keçir və cavanların canını almaq üçün tələsir.*

*Bəs, ey dünyaya güvənib, aldanan, bir dayan! Dünya nemətlərindən axirətin üçün yararlı azuqə topla."*



## İmamın möcüzələri

1. Nəsir Xadim deyir: Dəfələrlə imam Həsən Əskərinin (ə) müxtəlif ölkələrdən gələn şiə və tərəfdarları ilə öz dilində danışdığının şahidi olmuşam. Mən özüm təəccüb edir və öz-özlüyümdə düşünürdüm ki, axı, imam Həsən Əskəri (ə) Mədinədə dünyaya gəlib, atası şəhid olana qədər də heç bir yerə getməyib, dil öyrənmək üçün də bir kəsdən təlim almayıb. Bəs, hər bir dildə necə danışa bilir?!



Bu fikirdə idən birdən həzrət baxışlarını mənə yönəldib, buyurdu: “Allah Öz höccətini (və vəsisini) hər bir halda digər insanlardan üstün edib, bütün dilləri bilməyi, millətləri tanımağı, ölüm və gələcək hadisələrdən xəbərdar olmağı ona öyrədib. Əks təqdirdə, Allahın höccəti ilə digər insanlar arasında bir fərq olmazdı.”

2. Həsən ibn Zərif deyir: Zehnimdə iki məsələ var idi və imam Həsən Əskəriyə (ə) məktub yazaraq onun cavabını soruşmaq istəyirdim. Biri bu idi ki, imam Zaman (əc) zühur etdikdən sonra necə hökm kəsəcək və camaat arasında onun məhkəmə üsulu necə olacaq və ikincisi, filan qızdırmanın (belə ki, insan ona tutulandan sonra bir gün davam edir, iki gün çəkilir və dördüncü gün yenə qayıdır) səbəbini soruşmaq istəyirdim. Ancaq bir neçə gündən sonra ikinci sualımı tamamilə unutdum. Ona görə də təkcə birinci sualı yazıb, imamdan xahiş etdim ki, cavabını yazsın.
O həzrət (ə) suala belə cavab yazmışdı:
“Bismillahir-rəhmanir-rəhim!
İmam Məhdi (ə) zühur etdiyi zaman xalq arasında öz elmi əsasında – Davud peyğəmbər (ə) kimi hökm kəsəcək və şahid və sübuta ehtiyacı olmayacaq.
Amma unutduğun ikinci sualın çarəsi üçün də belə et. Aşağıda qeyd elədiyim ayəni yazıb, qızdırmaya tutulan şəxsə ver, özündə saxlasın. Allahın izni ilə tezliklə sağalar:
«Biz “Ey atəş, İbrahimə qarşı sərin və zərərsiz ol!”- deyə buyurduq.»
Həsən ibn Zərif deyir: Bu göstərişə əməl edəndən sonra xəstə sağaldı.

## İmamın elmi fəaliyyətləri

İmam Həsən Əskəri (ə) Abbasilər hakimiyyəti dövründəki ağır və məhdud şəraitdə öz geniş elmini bütün cəmiyyətə çatdıra bilməzdi. Lakin buna baxmayaraq, o həzrət, çətinliklə də olsa, yaranan hər bir imkandan İslam maarifini yaymaqda, müxaliflərin və ya dinsizlərin irad və şübhələrini rədd etməkdə böyük rolu olmuş, çoxlu sayda şagird yetişdirmişdi. Məsələn, şeyx Tusi o həzrətin şagirdlərinin sayının yüzdən çox olduğunu qeyd edir.

Belə savadlı şəxslərin yetişməsinə baxmayaraq bəzən müsəlmanlar üçün elə çətinliklər yaranır, yaxud elə çıxılmaz vəziyyətə düşürdülər ki, onu imam Əskəridən (ə) başqası həll edə bilmirdi. İmam bu cür hallarda öz qeybi elmi sayəsində fövqəladə tədbirlə çətinliyi həll edir, onları çıxılmaz vəziyyətdən qurtarırdı.



## Rahibin sirri

Bir dəfə Samirrada bərk quraqlıq oldu. Xəlifə Mötəmid əmr etdi ki, bütün xalq "istisqa" namazı qılmağa çıxsın. Camaat üç gün ardıcıl istisqa namazı qılıb, dua etdilər. Ancaq yağış yağmadı. Dördüncü gün isə onlar xristianların baş yepiskopu, rahiblər və digər xristanlanlar birgə səhraya çıxdılar. Rahiblərdən biri hər dəfə əlini göyə qaldırıb, dua etdikdə, dolu yağmağa başlayırdı. Ertəsi gün baş yepiskop da həmin işi təkrar etdi. O qədər yağış yağdı ki, camaat daha yağış istəmədi. Bu hadisə hamının təəccübünə və müsəlmanların böyük bir qisminin İslama şəkk edib, xristianlığa meyl göstərməyinə bais oldu. Özünü müsəlmanların arasında əsl imam hesab edən xəlifə bu işin qarşısını almaq üçün çarəsiz qalaraq imam Həsən Əskərini (ə) zindandan çıxarıb, saraya çağırtdıraraq dedi: Cəddin Peyğəmbərin (s) ümməti yolunu azır, onların dadına çat! İmam Həsən Əskəri (ə) buyurdu: "Xristianlara de ki, sabah hamı birgə səhraya toplaşsınlar." O dedi: Camaat daha yağış istəmir. Kifayət qədər yağış yağıb, bir daha səhraya getməyin nə mənası var? İmam buyurdu: "Şəkk-şübhəni aradan götürmək istəyirəm."



Xəlifə əmr etdi ki, sabah xristianların başçısı rahiblərlə birgə səhraya yığışsınlar. İmam Həsən Əskəri (ə) də çoxsaylı müsəlmanlarla səhraya gəldi. Baş yepiskop və rahiblər yağış yağması məqsədilə əllərini duaya qaldırdılar. Göy üzü tutularaq yağış yağmağa başladı. Bu vaxt imam Həsən Əskəri (ə) buyurdu: "Gedin, filan rahibin əlində nə varsa, alın, bura gətirin."

Onun ovcunda bir parça qara rəngli adam sümüyü var idi. İmam sümüyü bir parçaya büküb, rahibə buyurdu: "Yenə də Allahdan istə ki, yağış yağsın!" Rahib əlini göyə qaldırıb, dua etsə də, ancaq bu dəfə tam fərqli olaraq, bulud çəkildi və günəş çıxdı. Camaat hamı heyrətə gəldi.

Xəlifə imamdan soruşdu: “Bu sümük nədir?” İmam buyurdu: “Bu, ilahi peyğəmbərlərdən birinin sümüyüdür, onu qəbirdən çıxarmışlar. Hansı peyğəmbərin sümüyü aşkar görünsə, həmin an mütləq yağış yağmalıdır.”
Xəlifə imamı alqışladı. Sümüyü yoxlayıb gördülər ki, o, həqiqətən də, belədir. Bu hadisə imamın zindandan azadlığına və camaat arasında hörmətinin daha da artmasına səbəb oldu. İmam Həsən Əskəri (ə) bu fürsətdən istifadə edib, onunla bir yerdə zindanda olan dostlarının azad edilməsini də xəlifədən istədi. Xəlifə imamın istəyini qəbul edib, onları da azad etdi.





## İmam Həsən Əskərinin (ə) nəsihətləri

İmam Həsən Əskəri (ə) şiələrə bir sıra əməllərə riayəti tövsiyə etmişdir ki, onlardan bəziləri aşağıdakılardır:
1. Allahdan qorxu və dində təqvalı olma (dinin vaciblərini yerinə yetirmə və haramları tərk etmə);
2. Allahın razılığını qazanmağa səy göstərmə;
3. Sahibinin kimliyindən asılı olmayaraq əmanəti qaytarma;
4. Səcdələri uzatma;
5. Qonşularla yaxşı rəftar;
6. Allahı çox zikr etmə;
7. Ölümü çox xatırlama;
8. Quranı çox oxuma;
9. Peyğəmbər (s) və Əhli-beytinə (ə) daim salavat göndərmə.

## Böyük bir əxlaq dərsi

İmam Həsən Əskəri (ə) buyurur:
“Öz din qardaşlarının hüquqları ilə yaxından maraqlanan, ehtiyaclarını təmin edən, qarşısında təvazökar olanın Allah dərgahında adı doğru olanların və Əmirəlmöminin Əlinin (ə) həqiqi şiələri sırasında yazılar.”
Yaxud belə buyurur: Bir kişi oğlu ilə birgə imam Əlinin (ə) evinə qonaq gəldi. Həzrət Əli (ə) yerindən qalxıb, onları qarşıladı və çox böyük hörmətlə onları evin ən yaxşı yerində əyləşdirdi və özü də on-

ların qarşısında oturdu. Vaxtında yemək gətirdilər və yeməkdən sonra imam Əlinin (ə) qulamı Qəmbər əl yumaq üçün dəsmal, teşt və aftafanı gətirdi. Əli (ə) onları Qəmbərin əlindən alıb, qonağın əllərini yumaq üçün irəli gəldi. Qonaq özünü geriyə çəkib, dedi: "Ey Əmirəlmöminin! Axı, heç rəvadırmı ki, Allahın qarşısında siz o böyük məqamınızla mənim əlimə su tökəsiniz!" İmam Əli (ə) buyurdu: "Sənin qardaşın özündəndir, səndən ayrı deyil. Allah görür ki, din qardaşın (özünü nəzərdə tutaraq) xidmət göstərmək istəyir. İndi sən onun savab qazanmağına mane olmaq istəyirsən?"

O kişi yenə imtina etdi. Sonda həzrət Əli (ə) ona and verdi ki, mömin qardaşına xidmət etmək şərəfinə nail olmaq istəyinə mane olmasın.

Qonaq utanaraq halda razı oldu. Həzrət Əli (ə) buyurdu: "Xahiş edirəm, əllərini rahatlıqla yuyun. Elə yuyun ki, guya Qəmbər əlinizə su tökür və bu barədə heç nə fikirləşmirsən. Xəcalət çəkməyi də unudun."

Həzrət Əli (ə) qonağın əllərinə su töküb, o da yuduqdan sonra oğlu Məhəmməd ibn Hənəfiyyəyə dedi: "Oğlunun əlinə də suyu sən tök. Mən atan olduğum üçün atasının əlinə su tökdüm, sən də oğlunun əlinə su tök. Əgər burada təkcə onun oğlu qonağımız olsaydı, mən özüm bu işi görərdim. Ancaq ata və oğul birgə olan yerdə onların arasında fərq, ehtiram və hörməti gözləmək Allah dərgahında bəyənilir.



Bundan sonra Məhəmməd atasının tapşırığı ilə qonağın oğlunun əllərinə su tökdü."

İmam Əskəri (ə) bu gözəl əhvalatı nəql etdikdən sonra buyurdu: "Əsl şiə gərək belə olsun."

## Atasının dövründə zülmkarlarla mübarizə

İmam Həsən Əskəri (ə) hələ atası sağ ikən neçə zalım xəlifənin müasiri və bir çox hadisələrin şahidi olmuşdur. Həmin xəlifələr aşağıdakılardır:

1. Mütəvəkkil; 2. Müntəsir;
3. Müstəin; 4. Mötəzz.

İmam Həsən Əskəri (ə) də mövqeyində atası ilə çiyin-çiyinə durmuş, heç vaxt bu xəlifələri təsdiq etməmişdir. Üstəlik, yaranan hər bir fürsətdən istifadə edərək onların hakimiyyətinə qarşı müxalif olduğunu bildirmişdir.



Mütəvəkkil cəllad, xəbis, qaniçən bir şəxs idi, həmişə həzrət Əlinin (ə) nəslinə qarşı öz kin və düşmənliyini büruzə verirdi. Hətta, imam Əli (ə) və imam Hüseynin (ə) qəbrinin ziyarətini qadağan edib, o həzrətə (ə) olmazın əzab-əziyyət yetirməkdən belə çəkinmirmiş. Nəhayət, Mütəvəkkil öz oğlu Müntəsirin vasitəsilə qətlə yetirildi və o, hakimiyyətə gəldikdən sonra şiələr bir müddət rahat nəfəs aldılar.

Müntəsir isə atasından fərqli olaraq Əli (ə) və onun övladlarına olan məhəbbətini aşkar edərək camaata imam Hüseynin (ə) qəbrinin ziyarətinə getməyə icazə verdi, Fədəki qaytardı və Əlinin (ə) nəsli ilə yaxşı davrandı. Ancaq ömrü çox qısa oldu və tarixə əsasən, öz təbibi ibn Teyfurun əli ilə zəhərləndi. Bu muzdur ünsür o zaman hakimiyyətdə nüfuzu artan türk məmurlarından otuz min dinar alaraq Müntəsiri qanalma zamanı zəhərlədi. Beləliklə, yerinə zalım bir xəlifə – Müstəin hakimiyyətə gəldi.



## İmamın ehtiyaclılara yardımı

O dövründə Məhəmməd ibn İbrahim adlı bir cavan ata-anası ilə birgə kiçik bir evdə yaşayırdı. Onlar maddi çəktinlik içərisində idilər. Hər gün ötdükcə vəziyyətləri bir az da ağırlaşırdı. Bir gün Məhəmməd atasına dedi: “Atacan! Axır, bir çarə tapmaq lazımdır, belə olmaz.” Ahıl kişi olan atası belə cavab verdi: “Bizi bu bədbəxtlikdən qurtara biləcək yalnız bir yol vardır.” Məhəmməd heyrətlə soruşdu: “O hansı yoldur?” Atası dedi: “İmam Əskəri (ə)

hal-hazırda Samirrada yaşayır. O, çox səxavətli insandır. Gəl, onun yanına gedək və çətinliyimizi ona danışaq. O mütləq bizə kömək edər.
Məhəmmədlə atası səfər azuqəsini götürüb, Samirraya tərəf yola düşürlər. Yol arasında atası oğluna deyir: "Sənin fikrincə, bizim vəziyyətimizin düzəlməsi üçün nə qədər pula ehtiyacımız var? "Oğlu bir az fikirləşəndən sonra deyir: "Beş yüz dirhəm bizə bəs edər. Əgər bu pulu mənə versə, iki yüz dirhəminə geyim və yaşayış vasitələri alarıq, iki yüz dirhəmi ilə borclarımızı ödəyərik, qalan yüz dirhəmi ilə də bir müddət dolana bilərik."
O hələ cavan idi və ürəyindən keçdi ki, kaş, imam onun özünə ayrıca üç yüz dirhəm verəydi. Əgər üç yüz dirhəmi olsa, onun yüz dirhəminə özünə yaşayış üçün lazım olanları, yüz dirhəminə də bir at alıb Cəbbil şəhərinə gedərək orada atla işləyib, pul qazanar, qalan yüz dirhəmini də səfər lazım olan yerə xərcləyər.
Bu minvalla, Məhəmməd fikirlərə dalır və sonra isə öz-özünə deyir ki, ancaq bu qədər pul olduqca çoxdur. Hər halda bu zəmanədə heç kimin yoxsul bir ailəyə səkkiz yüz dirhəm verməyə cürəti çatmaz. Axır, özünü bir təhər qane edir ki, hətta İmam da onlara bu qədər pul verməz.



Onlar yollarına davam edib, Samirraya çatdılar. Soraqlaşa-soraqlaşa imamın evini tapıb, qapını döydülər. Bir nəfər qapını açıb, dedi: "Əli ibn İbrahim və oğlu Məhəmməd sizsinizmi?" Onlar təəccübdən donub, qaldılar: – "O, bizim adımızı haradan bilir?" Qoca heyrət içərisində dedi: "Bəli, mən Əli ibn İbrahim, bu da oğlum Məhəmməddir."
Onlar içəri daxil oldular. İmam Həsən Əskərinin (ə) hüzuruna gəlib, salam verdilər. İmam gülərüzlə salamın cavabını verib, yemək gətirilməyini göstəriş verdi. Məhəmmədlə atası bərk acmışdılar. Yeməklərini iştahla yeyəndən sonra bir az istirahət etdilər.
İmam (ə) onun atasına üzünü tutub, buyurdu: "Ey Əli, nə əcəb, indiyə kimi bizim yanımıza gəlməmisiniz?"
O, dedi: "Ey Peyğəmbər övladı! Belə bir işdən ötəri sizin yanınıza gəlməyə utanırdım." Daha sonra imam ona bir kisə pul verib, buyurdu: "Bu kisədə sənin istədiyin qədər beş yüz dirhəm var. Onun iki yüz dirhəminə paltar və evə lazım olan şeyləri al, iki yüz dirhəmini borcuna ver və yüz dirhəmini də gələcək xərclərin üçün saxla." Sonra Məhəmmədə də bir kisə pul verib, dedi: "Bu da istədiyin üç yüz dirhəmdir. Onun yüz dirhəminə ürəyin istədiyi kimi at al, ancaq Cəbbilə getmə. İşləmək istəsən, Surəyə (ya Savra) get. Orada vəziyyətin daha yaxşı olacaq."
Məhəmməd heyrət içində imama baxırdı. O, hələ indi camaatın imamı niyə bu qədər sevmələrini yavaş-yavaş anlaya bilirdi. Dərk edirdi ki, imamın elmi Allah tərəfindəndir və o, Peyğəmbərin (ə) övladı və canişinidir.

## Müstəin və Mötəzzin aqibəti



İmam Həsən Əskərinin (ə) şiələrdən birinə məktubunda belə yazılır: “Mən bu zülmkar (Müstəin) barədə Allah dərgahına əl açlıb, nifrin etmişəm. Allah onu üç gündən sonra vəzifəsindən uzaqlaşdıracaq.”

Üç gündən sonra bir hadisə nəticəsində Müstəin xilafətdən uzaqlaşdırıldı və sonra da qətlə yetirildi. Belə ki, əmisi oğlu Mötəzzin tərəfdarları tərəfindən həbs etdiləndən sonra başı bədənindən ayrılıb, ona (Mötəzz) təhvil verildi.

Mötəzz abbasilərin xəbis xəlifəsi Mütəvəkkilin oğludur. Xəlifə Müstəinin hakimiyyətindən sonra xilafəti ələ keçirərək öz sülaləsinin zülm və fəsad yolunu davam etdirib.

Bir gün Mötəzz vəzir-vəkilləri və həmfikirlərini bir yerə toplayandan sonra bir münəccim çağırtdırıb, hakimiyyətdə nə vaxtadək hökm sürəcəyi müddəti müəyyənləşdirmək istədi. Fikir mübadiləsi zamanı məclis iştirakçılarından biri dedi: “Mən onun nə qədər hakimiyyətdə qalacağını və hətta nə qədər yaşayacağını belə münəccimdən daha yaxşı bilirəm.” O, daha sonra öz fikrini belə açıqladı: “Nə qədər ki, türklər onu himayə edib, hakimiyyətdə qalmasını istəyirlər, o da özyerində qalacaq, amma onların rabitələri pozulub, aralarında ixtilaf yarandığı gündən sonra hakimiyyətinin devrilməsi qətidir.”

Elə o cür də oldu. Çox keçmədi ki, Mötəzz və qohum-əqrəbası əyləncə və əyyaşlığa qurşandılar, beytül-malı istədikləri kimi günlərinin xoş keçirməyinə sərf etdilər və yavaş-yavaş ölkənin xəzinəsi boşaldı.

Onlar ordunun hüquqlarını təmin edə bilmədikləri zaman əksəriyyəti türklərdən ibarət hərbi qüvvələr Mötəzzə qarşı qiyam etdilər.



Nəhayət, saraya girən dəstələr onu sürüyə-sürüyə bir otağa apardılar. Sonra onu, o ki var döyüb, paltarını yandırdılar, özünü isə sarayın həyətində günün altına atlılar. Həmin gün hava həddən artıq isti idi və heç kim ayağını yerə basa bilmirdi.

Qiyamçılar Mötəzzi hakimiyyətdən çıxardıb, bir neçə nəfəri də şahid tutdular. Sonra vəzifədən kənarlaşdırılmış xəlifəyə ölüm hökmü kəsdilər. Bu işə təyin edilənə dedilər ki, onu ac-susuz saxlayıb, işgəncə ilə öldürsün. O da yarımcan halda olan xəlifəni bir sərdabəyə salıb, qapısını bağladı və beləliklə, orada diri-diri torpağa basdırıldı.

## Məktub

Bir gün namazdan sonra neçə nəfər imam Həsəni Əskərinin (ə) möcüzələri barədə söhbət edirdi. Onların yanında imama (ə) mötəqid olmayan və o həzrətin imamət məqamını qəbul etməyən bir nəfər də var idi. Nəhayət, o da söhbətə qarışıb, dedi: “Mən sizin sözlərinizi qəbul etmirəm. Həsən Əskəri də başqaları kimi adi bir insandır. Siz bu sözləri özünüzdən deyirsiniz.”
Onlar da belə cavab verdilər: “Biz bunları öz gözümüzlə görmüşük. Necə inanmaya bilərik?!”
Xülasə, bu barədə uzun mübahisə getdi. Axır, o şəxs dedi: “Həsən Əskərinin (ə) başqalarından fərqi olmamadığını sizə sübut etmək üçün elə öz yanınızda onu imtahan edərik. Hər birimiz məktub yazıb, imamınızdan suallarımızı soruşaq. Mən də bir məktub yazacağam, amma mürəkkəbin rəngi olmayacaq. Məlumdur ki, onu adi adamlar oxuya bilməzlər. Bunu yalnız qeybdən xəbəri olan kəs oxuya bilər. Əgər o, mənim yazdığım məktubu oxuya bilsə, mən sizin dediklərinizə inanaram və onun vəsi və imam olduğunu qəbul edərəm.”
Onlar şərti qəbul edib, hər biri imama bir məktub yazdı və o da öz sualını şəffaf su ilə kağızın üzərinə köçürtdü. Daha sonra məktubları imam Həsən Əskəriyə (ə) göndərdilər. Bir neçə gündən sonra onlar yenə məsciddə bir yerə toplaşıb, məktublarının cavablarını aldılar. Hərə öz sualının cavabını oxudu.
Məktubların arasında o şəxsin də sualına cavab verilmişdi. Belə ki,





imam (ə) onun sulalına uyğun olaraq ata-anasının kim olduğunu dəqiqliyi ilə qeyd etmişdi.
O, məktubunun cavabını görəndə, mat qaldı. Bir qədər heyrət içində qalıb, heç nə danışa bilmədi. Sonra dedi: “Mən sizin hamınızdan üzr istəyirəm. Siz düz deyirsiniz. Mən indi inandım ki, Həsən Əskəri (ə) haqq imam, Peyğəmbərin (s) haqq canişini və elmi də Allah tərəfindəndir.”



## Şiələrin qeyb dövrünə hazırlığı

Tarixə əsasən, Abbasi xəlifələri imamlara qarşı əllərindən gələn bütün təzyiq və yasaqları həyata keçirirdilər. Bu təzyiqlər imam Cavad (ə), imam Hadi (ə) və imam Həsən Əskərinin (ə) Samirrada olduğu ərəfədə son həddə çatmışdı. Həyatı abbasilərin belə azğın hakimiyyəti dövrünə təsadüf edən üç imam bu təzyiqlərin şiddətindən cavan yaşlarında şəhid oldular. İmam Həsən Əskəriyə (ə) qarşı təzyiqlərin iki səbəbi vardı:



1. İmam Həsən Əskərinin (ə) dövründə şiələr artıq İraqda böyük bir gücə malik idilər. Hamı da bilirdi ki, onlar Abbasi xəlifələrini fasiq və qeyri-qanuni hesab edirlər. Onların fikrincə, İslamda xilafət və həqiqi imamlıq məqamı həzrət Əlinin (ə) övladlarına məxsusdur. O dövrdə də haqq imam həzrət Həsən Əskəri (ə) idi.

2) Abbasilər sülaləsi və tərəfdarları bir çox rəvayətlərə əsasən, bilirdilər ki, bütün azğın və qəsbkar hakimləri tar-mar edəcək vəd verilən Məhdi (əc) imam Həsən Əskərinin (ə) nəslindəndir.
Buna görə də, onlar daim imam Həsən Əskərini (ə) təqib edir, oğlunu ələ keçirib öldürmək fikrində idilər (necə ki, Firon həzrət Musanı (ə) uşaqlığından ələ keçirmək üçün əbəs yerə can atırdı.)
Nəqllərə əsasən, o həzrət imam Məhdinin (əc) dünyaya gəlişindən sonra barəsində yalnız məxsus və çox yaxın şiələrinə məlumat vermiş, həmçinin şiələrlə birbaşa əlaqəsini tədricən azaltmışdır. Belə ki, hətta Samirra şəhərinin özündə onların məsələləri və çətinliklərini məktub, yaxud nümayəndələr vasitəsilə həll edir, onları Allahın izni ilə oğlu Məhdinin (əc) qeybə çəkiləcəyi bir zaman və şəraitə hazırlayır və o həzrətlə də (əc) nümayəndələr vasitəsilə əlaqə saxlamağı aşılayırmış.



## İmam Həsən Əskərinin (ə) şəhadəti

İmam Həsən Əskərinin (ə) cəmiyyət arasındakı nüfuz və hörmətinin hər gün artdığından narahat olan Abbasi xəlifəsi Mötəmid indiyədək o həzrətə qarşı zindan, təzyiq və işgəncələrin əks nəticə verdiyini gördükdə, həmişəki üsul və kələyə əl atıb, imamı gizli surətdə zəhərlədi.
Nahayət, ömründən yalnız 28 il ötən imam Həsən Əskəri (ə) 260-cı hicri-qəməri ilində şəhadətə yetdi.



İmam Həsən Əskərinin (ə) şəhadət xəbəri Samirra şəhərinə yayıldıqda, şəhərdə ah-nalə, şivən səsləri ucaldı və bütün dükan-bazar bağlandı. Bəni-Haşim, məhkəmə işçiləri, ordu başçıları, şəhər qazıları, şairlər, vəkil və şahidlər, adi camaatın hamı o həzrətin əza və dəfn mərasiminə tələsdi.
Mötəmid etdiyi cinayətini gizlətmək və imamın şəhid edilməsində əlinin olmadığını göstərmək üçün həzrətə təntənəli dəfn mərasimi keçirilməsini göstəriş verdi. İmamın cənazəsi dəfn üçün hazır olduqda, xəlifə öz qardaşı İsa ibn Mütəvəkkili o həzrətə cənazə namazını qılmağa göndərdi.
Məlumdur ki, xəlifənin qardaşının imam Həsən Əskəriyə (ə) cənazə namazı qılması formal məna kəsb edirdi və hökumət imamın şəhadətindən yarana biləcək iğtişaşın qarşısını almaq üçün bu addımı atırdı. Ancaq bunların heç bir faydası olmadı və şiələr imamın Mötəmid tərəfindən qətlə yetirildiyinə əmin idilər. Hətta bildilər ki, imama cənazə namazı qılan şəxs də həzrət Məhdi (əc) olmuşdur.
Namaz qılındıqdan sonra imam Həsən Əskəri (ə) öz evində, atası imam Hadinin (ə) məzarı kənarında dəfn edildi.



## O həzrətin kəlamlarından:

“Dostuna xəlvətdə nəsihət verən şəxs ona zinət bəxş edib.”

“Dostların ən yaxşısı odur ki, sənin günahlarını unudub, yaxşılıqlarını yadda saxlasın.”

“Haqqı tərk edən hər əziz zəlil, onu müdafiə edən hər zəlil isə əziz olar.”



# İmam Həsən Əskəri (ə)

